*- Azərbaycan Respublikasının Tarif Şurası tərəfindən təsdiq olunmuş yuxarıda göstərilən əsas tariflərlə yanaşı, əhali və təşkilatlara göstərilən servis xidmətlərinin və digər əlavə telefon rabitəsi xidmətlərinin tarifləri "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq, telekommunikasiya operatorları tərəfindən sərbəst şəkildə tənzimlənir.

02.12.2013

Mobil və sabit şəbəkə operatorlarının beynəlxalq telefon rabitəsi xidmətlərinin tariflərinin tənzimlənməsi barədə

QƏRAR № 6

**AZƏRBAYCAN RESPUBLİKASININ TARİF (QİYMƏT) ŞURASI**

**QƏRAR №6**

**Bakı şəhəri, 2 dekabr 2013-cü il**

Mobil və sabit şəbəkə operatorlarının beynəlxalq telefon rabitəsi xidmətlərinin tariflərinin tənzimlənməsi barədə

Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2005-ci il tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə"yə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2005-ci il tarixli 247 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları"na uyğun olaraq Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası QƏRARA ALIR:

1. Mobil və sabit şəbəkə telefonlarından həyata keçirilən beynəlxalq telefon danışıqlarının tarifi ƏDV daxil olmaqla 32 qəpik/dəqiqə təsdiq edilsin.
2. Şənbə, bazar və bayram günləri bütün sutka ərzində, digər günlərdə isə saat 00:00-dan 08:00-dək bu qərarın 1-ci bəndi ilə müəyyən olunmuş tarifə 0,75 əmsalı tətbiq edilsin.
3. Bu qərarla təsdiq edilən tariflər mülkiyyət formasından asılı olmayaraq Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən verilmiş lisenziya əsasında ümumistifadəli telekommunikasiya şəbəkəsində fəaliyyət göstərən bütün mobil və sabit şəbəkə operatorlarının beynəlxalq telefon rabitəsi xidmətlərinə (taksofonlar istisna olmaqla) şamil olunur.
4. Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının "Respublika ərazisində sabit şəbəkə telefonlarından aparılan şəhərlərarası və beynəlxalq telefon danışıqlarının və mobil şəbəkə telefonlarından aparılan beynəlxalq telefon danışıqlarının tarifləri barədə" 14 may 2007-ci il tarixli 14 nömrəli Qərarı ləğv edilsin.
5. Bu qərar 1 yanvar 2014-cü il tarixindən qüvvəyə minir.

Azərbaycan Respublikası
Tarif (qiymət) Şurasının sədri Şahin Mustafayev